**UOT 745/749**

**Gülər Məmmədova**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**dissertant**
**E-mail: Ressam-memar@mail.ru**

# XALQ RƏSSAMI NATİQ ƏLİYEVİN BAKI ŞƏHƏRİNDƏ YARATDIĞI HEYKƏLTƏRAŞLIQ ƏSƏRLƏRİNDƏ MONUMENTALLIQ AXTARIŞLARI

**Xülasə:** Təsviri sənətin bütün növləri və janrları intensiv şəkildə inkişaf etməklə, xalqın həyatı ilə onun əlaqəsi daha da möhkəmlənmiş, bədii təsir dairəsi xeyli genişlənmişdi. Əvvəllər olduğu kimi bu dövrdə də, insanların nəcib əməlləri, saf duyğu və düşüncələri, coşqun yaradıcı əməyi rəssam və heykəltəraşlar üçün əbədi bədiilik və gözəllik, ilham mənbəyinə çevrilmişdi. Bir çox sənətlərin sintezi, qarşılıqlı əlaqəsi sahəsində, həm də bir sıra uğurlu nailiyyətlər qazanılmışdı. XX əsrin 70-80-ci illərində Bakı şəhərinin memarlığında monumental sənət əsərlərinin əsas inkişaf meyllərini heykəltəraşlıqla memarlığın sintezində yeni forma axtarışları müəyyən edir. Azərbaycan heykəltəraşlıq məktəbinin görkəmli nümayəndəsi Natiq Əliyevin yaradıcılığında da monumental heykəltəraşlıq abidələri özünəməxsus yerlərdən birini tutur. Məqalədə Xalq rəssamı Natiq Əliyevin Bakı şəhərindəki heykəltəraşlıq əsərlərində monumentallıq axtarışları tədqiq edilmişdir.

**Açar sözlər:** heykəl, Natiq Əliyev, memarlıq, şəhər, monument, bədii, plastika.

XX əsrin ortalarında xalqın məişətində bədiiliyin, estetikanın rolu getdikcə artmış, rəssam və memarlar insanların həyat tərzinin və estetik zövqünün bədii tələblərə müvafiq problemlərinin həllində yaxından iştirak etmişlər. Memarlıq sahəsində aparılan novator axtarışlar sənətlərin sintezi üçün əlverişli imkanlar açmışdı. Zamanına görə yenilənən “Monumental təbliğat planı” da uğurla həyata keçirilməkdə idi. Bakıda və respublikanın digər şəhərlərində ictimai və mədəniyyət xadimlərinin abidələrinin qoyulması da bunun göstəricisi idi. İkinci dünya savaşında həlak olmuş qəhrəmanların şərəfinə geniş şəkildə xatirə komplekslərinin yaradılmasına başlanılır. Bu dövrdə də monumental sənət əsərlərinin əsas inkişaf meyllərini heykəltəraşlıqla memarlığın sintezində yeni forma axtarışları müəyyən edir. Çünki monumental heykəltəraşlıq şəhər ansambllarında daha geniş tətbiq edilməyə, bu ansamblların ümumi həllində, həmçinin ayrı-ayrı küçə və meydançaların, yaşıllıqların salınmasında mühüm əhəmiyyət kəsb etməyə başlayır.

1970-1980-ci illərdə Azərbaycan monumental plastikası özünün qanuna uyğun üslub cizgiləri olan, qarşısında mürəkkəb və çoxşaxəli vəzifələri həll etməyi bacaran formalaşmış bir məktəbə çevrilir. Müxtəlif janrların qarşılıqlı əlaqəsi ilə böyük bədii üslub obrazlılığına və ifadə rəngarəngliyinə doğru duyulası yüksəlmələr baş verir. Abidələrin plastik strukturu böyük kompozisiya dinamikası ilə mürəkkəbləşir və heykəllərlə məkanın qarşılıqlı əlaqəsindən daha dolğun istifadə olunur. Heykəltəraşlıq əsərlərinin təkcə memarlıqla deyil, eləcə ətraf məkanla qarşılıqlı əlaqəsinə ciddi diqqət, öz işini daima bütöv bir işin hissəsi kimi nəzərdən keçirmək həmin dövrün - günün xarakterik xüsusiyyətinə çevrilir.

1980-ci ildə Azərbaycan heykəltəraşlıq məktəbinə gələn Natiq Əliyevin yaradıcılığında da tədricən monumental heykəltəraşlıq abidələri üstünlük təşkil etməyə başlayır. Natiq Əliyevin monumental əsərləri onunla rəğbət qazanır ki, bu əsərlər müxtəlif həyat hadisələrinə müəllifin özünəməxsus münasibətini əks etdirir. Heykəltəraş fəza-məkan heykəl kompozisiyaları yaratmaq üzərində xüsusilə çox işləyir. Saysız-hesabsız etüdlər və qaralamalar da heykəltəraşın səmərəli fəaliyyət göstərdiyinə dəlalət edir. Natiq Əliyevin material seçimində nümayiş etdirdiyi məntiqli addımlar, kompozisiya siluetinin və xətt ritminin özünəməxsus müəllif münasibətinə tapınmış bədii həlli onun abidələrinin fərqli bədii tutumunun müəyyənləşməsində aparıcı rol oynayır.

Qəzəlxan-şair Əliağa Vahidin sovet dönəminin süqutu dövründə - 1990-cı ildə paytaxtda ucaldılan tunc abidəsi (müəllifləri Natiq Əliyev və Rahib Həsənov) bəlkə də bu gün şəhər memarlığına əvvəlki kimi təsir göstərə bilmir, amma orijinal forma-biçiminə görə XX əsr Azərbaycan heykəltəraşlığının ən uğurlu əsərlərindən sayılmağa layiqdir (1, 8). Lakin hündürlüyü 3 metrə çatan bu tunc abidə nə qədər əvvəlki yerində - Filarmoniya bağında ətraf mühitə təsir gücündə idisə, müstəqillik illərində onun "İçərişəhər" metrosunun arxasına - qala divarları arasındakı darısqal məkana köçürülməsi nəticəsində onu əhatələyən müxtəlif kiçik obyektlərin "əsir"inə çevrilmişdir. Təmtəraqlı kürsüdən imtina etmələri (memarı Sənan Salamzadə) ilə şairin torpağa bağlılığına işarə edən müəlliflərin portret şəklində həll etdikləri abidəni saçlarında xalqın həyatında önəmli yer tutan toy və yas ənənələrini relyef şəklində ifadə etməklə, bütünlükdə qəzəlxanın obrazının cəlbediciliyinə nail olmuşlar. Xurşudbanu Natəvan və İmadəddin Nəsiminin abidələri kimi Əliağa Vahidin heykəli də bir qədər səs-küydən uzaq məkanda yerləşdirilsəydi, ondan alınan estetik zövq, onun şəhər memarlığına müsbət təsiri daha duyulan olardı...

Bakıda xarici ölkə təmsilçisi olan məşhurlara qoyulan ikinci abidə dünyaşöhrətli rumın musiqiçisi və bəstəkarı Corc Eneskuya həsr olunmuşdur. 2006-cı ildə paytaxtın 8-ci mikrorayonunda ucaldılan bu abidənin müəllifi Xalq rəssamı Natiq Əliyev, memarı isə Rasim Balakişiyevdir (2, 13). Müasir rumın musiqisi-

nin əsasını qoyan, zamanında Rumıniya Bəstəkarlar Cəmiyyətinin təsisçisi və prezidenti olmuş Corc Eneskunun abidəsini yarımfiqur formasında (hündürlüyü 1,80 santimetr) həll edən heykəltəraş, bununla da onun ifaçılıq istedadını qabartmağa çalışmışdır. Onu çöhrəsi düşüncəli, sağ əli skripkalı və sol əli hərəkətli təqdim edən müəllif, tunc plastik tutumun cəlbediciliyinə nail olmuşdur. Qırmızı kürsü (hündürlüyü 1,80 santimetr) ilə tunc fiqurun qovşağının yaşıllıqla əhatələnməsinin yaratdığı bədii aura cəlbedici və yaddaqalandır. Əlavə edək ki, bu abidənin paytaxt memarlığına daxil edilməsi iki il əvvəl Buxarestdə Heydər Əliyevə abidənin ucaldılmasına cavab olmuşdur.

Paytaxtda 2011-ci ildə açılışı baş tutan Avstriya bəstəkarı Volfanq Amadeo Motsartın abidəsinin açılışında hər iki ölkə prezidentinin iştirak etməsi, ilk növbədə bu bədii-siyasi tədbirin dövlət əhəmiyyəti daşımasından xəbər verir. Müəllifi Xalq rəssamı Natiq Əliyev, memarı Çingiz Fərzəliyev olan heykəl Yasamal rayonunda – İnşaatçılar prospektindəki “Rəssamlar evi” ilə üzbəüz yaradılmış parkda yerləşir. Qeyd etmək lazımdır ki, yenidən qurulmuş bu məkan paytaxt sakinlərinin və qonaqların gözünü oxşamaqla yanaşı, fəvvarə ətrafında dairəvi skamyada oturub şəhərin səs-küyündən dincəlmək istəyənlər üçün ürəkaçan bir yerdir.

Boz mərmər kürsü üzərində dinamik bir tutumda təqdim olunmuş görkəmli bəstəkarın tunc fiqurunun hündürlüyü 3,85 metrə çatır. Dairəvi kürsünün hündürlüyünün cəmi bir metrə çatması da məqsədli olub, bilavasitə, o qədər də geniş olmayan məkanda heykəlin yaxından müşahidə olunmasına şərait yaratmaq üçün həyata keçirilmişdir.

2011-ci ildə paytaxtımızda Azərbaycan mədəniyyət və incəsənət tarxində silinməz iz buraxmış iki sənətkara abidə ucaldılmışdır. Hər iki abidə üçün məkan kimi Bakının ən izdihamlı guşələri seçilmişdir. Onlardan biri memarlıq sahəsində professional təhsil almış ilk azərbaycanlı Zivərbəy Əhmədbəyova həsr olunmuşdur.

Bu abidə ilk növbədə məkanın məntiqli seçimi ilə diqqət çəkir. Belə ki, paytaxtın Yasamal rayonunda - metronun “Nizami” stansiyasının qarşısındakı parkda ucaldılan heykəl, həm də zamanında memarın layihəsi əsasında tikilmiş binanın və onun adını daşıyan küçənin qonşuluğunda yerləşir. Qeyd etmək lazımdır ki, o, incəsənət tariximizə öz yaradıcılığında Qərbi Avropa və Şərq memarlığı ənənələrini duyulası məharətlə birləşdirən sənətkar kimi daxil olmuşdur. Zivərbəy Əhmədbəyov 1918-1920-ci illərdə Bakının baş memarı vəzifəsində çalışmaqla, XX əsrin əvvəllərində paytaxt memarlığının formalaşmasında müstəsna rolu olmuşdur. Onun layihəsi əsasında Bakıda inşa olunan Təzəpir məscidi, Əjdərbəy məscidi, Səadət məktəbi, Uşaq xəstəxanası, eləcə də Əmircan qəsəbəsindəki Muxtarov məscidi, Vladiqafqaz, Şamaxı və Göyçaydakı tikililər onun ya-

radıcı təxəyyülünün genişliyini özündə əks etdirir. Odur ki, abidənin müəllifləri işıqlı əməlləri ilə xalqımıza başucalığı gətirmiş memarın adına müvafiq məkan həlli tapmağa, heykəli əhatələyən sahəni gözoxşayan istirahət guşəsinə çevirməyə çalışmışlar. Əvvəllər bir qədər baxımsız vəziyyətdə olan ərazidə çoxsaylı ağac və gül kolları əkilmiş, yaşıllıq zolaqları salınmaqla, müasir işıqlandırma sistemi və fəvvarələr kompleksi ilə təmin edilmişdir.

Bu ümumi hündürlüyü 4 metrə çatan (fiqurun hündürlüyü 2,70 metrdir) tunc abidənin ətrafında gözoxşayan auranın yaranmasını şərtləndirmişdir. Cəmisi 52 il ömür sürmüş və zamanında bədxah qonşularımızın təzyiqlərinə məruz qalan və sonda intihar edən memarın yaddaqalan obrazını yaratmaq üçün, Natiq Əliyev davamlı axtarışlar aparmışdır. Elə indi dairəvi daş kürsü üzərində Zivərbəy Əhmədbəyovun fiqurunun bədii tutumundakı cəlbedicilik və təsirlilik də bu gərgin axtarışların məntiqli nəticəsidir. Elə əli layihəli fiqurun inamlı duruşunda, başının qətiyyətli hərəkətində, plaşının dalğalanmış təqdimatında da yaradıcı şəxsiyyətə xas mənəvi-psixoloji yaşantının romantik əlamətləri duyulmaqdadır. Ümumi plastik tutumun geniş bədii ümumiləşdirmələrlə ifadəsinin abidənin monumental görkəm almasına təsiri də böyük olmuşdur.

2013-cü ildə paytaxtın Nərimanov rayonundakı kiçik parkda ucaldılmış "Bakı-Həştərxan dostluğu" abidəsi (müəllifi Natiq Əliyev) məna-məzmun tutumuna görə diqqətçəkən olmuşdur (3, 11-16). İki şəhərin dostluğuna həsr olunmuş abidədə real və rəmzi detallarla fikrini plastikaya çevirməyi bacaran müəllif, son nəticədə onun həm də düşündürücülüyünə nail olmuşdur. Onu əhatələyən yaşıllıqla əlaqədə təsirli görünən abidənin miqyası nisbətən kiçik seçildiyindən, məzmunlu plastik tutumun cəlbediciliyi arzulanan dərəcədə deyildir...

## Ədəbiyyat siyahısı:


1. . Əliyev Z. Heykəltəraşın sənət dünyasındakı izləri: Xalq rəssamı Natiq Əliyevin portret cizgiləri //Mədəniyyət. 2008. 18 dekabr. s. 8.

2. Qasımov F. "Heykəltəraş Natiq Əliyevin yaradıcılığı" // Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Müasir mədəniyyətşünaslıq jurnalı. №1, s. 12-19

3. Qasımov F. "Heykəltəraş Natiq Əliyevin Bakı-Həştərxan dostluq abidəsi və Knyaz Vladimirin heykəli nümunələri" // Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Xalça Muzeyi, Təsviri və dekorativ-tətbiqi sənət məsələləri №3-4 (14) Bakı 2014. S. 11-16.

**Гюляр МаммадоваПоиски монументализма в скульптурах, созданных в Бакународным художником Натигом Алиевым**

**Резюме:** С интенсивным развитием всех видов и жанров изобра- зительного искусства, еще больше укрепилась его связь с бытом народа, значительно расширилась сфера художественного влияния. Как и прежде, благородные поступки, чистые чувства и мысли людей, вечное противосто- яние зла и добра, стали источником вдохновения в творчестве художникови скульпторов.Ряд успешных достижений был сделан в области синтеза и взаимодействия многих искусств. Основные направления развития монументальных произведений искусства в архитектуре Баку 70-80-х годов XX века определяются поиском новых форм в синтезе скульптуры и архитек- туры. Монументальные скульптурные памятники занимают особое место в творчестве выдающегося представителя азербайджанской скульптурной школы Натига Алиева. В статье исследуются поиски монументальности в скульптурах народного художника Натига Алиева в Баку.

**Ключевые слова:** скульптура, Натиг Алиев, архитектура, город, па- мятник, искусство, пластика.

**Gular MammadovaSEARCHES OF MONUMENTALITY IN SCULPTURES CREATEDIN BAKU BY PEOPLE'S ARTIST NATIG ALIYEV**

**Summary:** With the intensive development of all types and genres of fineart its relationship with the life of the people became stronger, the sphere of artistic influence expanded significantly. As before, the noble deeds, pure feelings and thoughts of people, the enthusiastic creative work became a sourceof eternal beauty and inspiration for artists and sculptors. A number of successfulachievements were also gained in the field of synthesis and interaction of manyarts. The main trends in the development of monumental works of art in the architecture of Baku during the 70-80s of the 20th century determine the searchfor new forms in the synthesis of architecture by sculpture. The monuments ofmonumental sculpture occupy one of the unique places in the works by Natig Aliyev, the outstanding representative of the Azerbaijan sculpture school. In thearticle People's Artist Natig Aliyev's researches for monumentality in
sculptures--- of Baku are investigated.

**Key words**: monument, Natig Aliyev, architecture, city, monument,artistic, plasticity.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 29. 11. 2021**

**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**